

AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ

# İXRAC İCMALI

Yanvar 2020

iqtisadiislahat.org
info@ereforms.org

**AZEXPORT.AZ**
**Made in Azerbaijan**

# “AZƏRBAYCAN 2019-CU İLDƏ İQTİSADİ SAHƏDƏ QARŞIDA DURAN BÜTÜN VƏZİFƏLƏRİ UĞURLA İCRA ETMİŞDİR”

Azərbaycan Respublikasının Prezidenti
cənab İLHAM ƏLİYEVİN
2020-ci il 13 yanvar tarixində keçirilən
2019-cu ilin yekunlarına həsr olunmuş
müşavirədəki nitqindən



“Keçən il iqtisadi sahədə böyük müsbət nəticələr əldə edilmişdir. Bu nəticələr göstərir ki, bizim siyasətimiz düşünülmüş siyasətdir. Hesab edirəm ki, Azərbaycan 2019-cu ildə iqtisadi sahədə qarşıda duran bütün vəzifələri uğurla icra etmişdir. Təkcə rəqəmlərə baxanda demək kifayətdir ki, 2019-cu il iqtisadi inkişaf baxımından ölkəmiz üçün uğurlu olmuşdur. Dünya Bankı Azərbaycanı 20 ən islahatçı ölkə siyahısına salmışdır, bu, böyük nailiyyətdir. Bu, onu göstərir ki, ölkəmizdə aparılan köklü islahatlar aparıcı beynəlxalq qurumlar tərəfindən də təqdirlə qəbul edilir. Deyə bilərəm ki, bütövlükdə 2019-cu il dərin islahatlar ili olmuşdur - həm siyasi, iqtisadi, sosial sahələrdə, həm də kadr və struktur islahatları sahələrində. Bu islahatlar inkişafımızın bundan sonra daha da uğurlu olacağına imkan verəcək, o cümlədən iqtisadi artım daha da böyük rəqəmlərlə ölçüləcəkdir”.

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ______ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ______ səh. 12

2019-cu ildə Azərbaycana gələn xaricilər bank kartları vasitəsi ilə 1256,8 milyon manatlıq əməliyyat aparmışlar ______ səh. 16

Azexport.az portalına 2019-cu ildə 595,7 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur ______ səh. 18

Azexport.az portalı "Pay Ring" rəqəmsal ödəniş sisteminin icrasına başlamışdır ______ səh. 22

2020-ci ilin yanvar ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 13,8 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir ______ səh. 23

Azərbaycan şirkətləri "Beynəlxalq Yaşıl Həftə 2020" sərgisində iştirak etmişdirlər ______ səh. 26

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2019-cu ilin **YANVAR-DEKABR AYLARINDA** qeyri-neft sektoru üzrə **1 milyard 954 milyon** ABŞ dolları dəyərində mal **İXRAC OLUNMUŞDUR**

**2018-ci İLİN** müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə ixrac **265 milyon** ABŞ dolları və ya **15,7%** artmışdır

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin məlumatına əsasən 2019-cu il ərzində ölkəmizin ixracı **19,6 milyard** ABŞ dolları təşkil etmiş və 2018-ci ilin müvafiq dövrünə nisbətən **146 milyon** ABŞ dolları və ya **1 faiz** artmışdır. Bu müddətdə qeyri-neft sektoru üzrə **1 milyard 954 milyon** ABŞ dolları dəyərində ixrac reallaşdırılmışdır. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu il ərzində qeyri-neft sektoru üzrə ixrac **265 milyon** ABŞ dolları və ya **15,7 faiz** artmışdır.

2019-cu ildə Rusiyaya **690,6 milyon**, Türkiyəyə **401,8 milyon**, İsveçrəyə **179 milyon**, Gürcüstana **159,1 milyon** və Ukraynaya **50,6 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunmuşdur.

2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ildə Rusiyaya qeyri-neft ixracı **11,5 faiz**, Türkiyəyə **16,5 faiz**, İsveçrəyə **32,2 faiz**, Gürcüstana **27,8 faiz** və Ukraynaya **24,6 faiz** artmışdır. Eyni zamanda qeyri-neft sektoru üzrə ixracın dəyərində Rusiyaya (35,3 faiz), Türkiyəyə (20,6 faiz), İsveçrəyə (9,2 faiz), Gürcüstana (8,1 faiz) və Ukraynaya (2,6 faiz) göndərilmiş malların payı üstünlük təşkil etmişdir.

2019-cu ilin yanvar-dekabr ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısına pomidor (189,3 milyon ABŞ dolları)

liderlik etmişdir. Bu siyahıda qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda – 172,4 milyon ABŞ dolları) ikinci və qabığı təmizlənmiş meşə fındığı (124,2 milyon ABŞ dolları) üçüncü olmuşdur.

Həmçinin 2019-cu il ərzində pambıq mahlıcı, xurma, elektrik enerjisi, ilkin formalı polipropilen, metanol (metil spirti), xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, emal olunmamış aşqarlanmamış alüminium də qeyri-neft ixracında önə çıxmışdır.

Ümumiyyətlə, 2019-cu ildə meyvə-tərəvəz ixracı **605,8 milyon**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **179,4 milyon**, alüminium və ondan hazırlanan məmulatların ixracı **128 milyon**, pambıq lifi ixracı **124 milyon**, kimya sənayesi məhsullarının ixracı **102,9 milyon**, elektrik enerjisinin ixracı **76,8 milyon**, qara metallar və onlardan hazırlanan məmulatların ixracı **57,6 milyon**, pambıq ipliyi ixracı **30,2 milyon**, şəkər ixracı **26,9 milyon**, alkoqollu və alkoqolsuz içkilərin ixracı **23,7 milyon** ABŞ dolları təşkil etmişdir.

2018-ci illə müqayisədə 2019-cu ildə pambıq lifinin ixracı **54 faiz**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **51 faiz**, alkoqollu və alkoqolsuz içkilərin ixracı **46 faiz**, kimya sənayesi məhsullarının ixracı **32 faiz**, pambıq ipliyinin ixracı **27 faiz**, elektrik enerjisi ixracı **17 faiz**, alüminium və ondan hazırlanan məmulatların ixracı **14 faiz**, şəkər ixracı **8 faiz**, meyvə-tərəvəzin ixracı **8 faiz** artmışdır.

2019-cu ilin dekabr ayında isə qeyri-neft sektoru üzrə ixrac **173 milyon** ABŞ dolları təşkil etmişdir. 2018-ci ilin dekabr ayı ilə müqayisədə 2019-cu ilin dekabr ayında qeyri-neft sektoru üzrə ixrac **16 milyon** ABŞ dolları və ya **10 faiz** artmışdır. 2019-cu ilin dekabr ayında qeyri neft-qaz məhsulları ən çox mal Rusiyaya (68,3 milyon ABŞ dolları), Türkiyəyə (38,4 milyon ABŞ dolları), İsveçrəyə (15,1 milyon ABŞ dolları), Gürcüstana (8,5 milyon ABŞ dolları) və Özbəkistan (6,7 milyon ABŞ dolları) ixrac edilmişdir.

2019-cu ilin dekabr ayında qeyri-neft sektoru üzrə ixracda pomidor (22,6 milyon ABŞ dolları) birinci, xurma (20,1 milyon ABŞ dolları) ikinci, pambıq mahlıcı (14,9 milyon ABŞ dolları) üçüncü yerdə olmuşdur.

Bunlarla yanaşı 2019-cu ilin dekabr ayında qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda), qabığı təmizlənmiş meşə fındığı, ilkin formalı polipropilen, mis filizləri və konsentratları, alma, daş kömür qatranının yüksək temperaturlu qovulmanın digər yağları və məhsulları, xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen də qeyri-neft sektoru üzrə ixracda mühüm paya sahib olmuşdur.

2019-cu il ərzində ixrac olunan əsas malların siyahısı və əsas ixrac ölkələri barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikalarda verilmişdir.

MADE IN AZERBAIJAN

# 2019-CU İLİN **YANVAR-DEKABR AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
## (2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2019-CU İLİN **DEKABR AYINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
**(2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2020 İXRAC İCMALI YANVAR



# 2019-CU İLİN **YANVAR-DEKABR AYLARINDA** 2018-Cİ İLİN MÜVAFİQ DÖVRÜNƏ NİSBƏTƏN QEYRİ-NEFT SEKTORUNA AİD BƏZİ MALLARIN **İXRACININ ARTIMI**
**(Dəyəri milyon ABŞ dolları ilə)**



# 2019-CU İLDƏ **RÜBLƏR ÜZRƏ QEYRİ-NEFT İXRACI**
**(Ötən ilin eyni rübü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**






# 2019-CU İLİN **YANVAR-DEKABR AYLARINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

**(Ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2020 İXRAC İCMALI YANVAR

| Məhsul | 2019 | 2018 |
|---|---|---|
| Tomat (pomidor) | 189,3 | 177,4 |
| Qızıl | 172,4 | 118 |
| Fındıq ləpəsi | 124,2 | 93,5 |
| Pambıq mahlıcı | 122,4 | 79,5 |
| Xurma | 104,7 | 114,5 |
| Elektrik enerjisi | 76,8 | 65,6 |
| İlkin formalı polipropilen | 65,7 | 6,6 |
| Metanol (metil spirti) | 64,6 | 39,3 |
| İlkin formalı polietilen | 64 | 74,4 |
| Digər | 970,2 | 920,4 |

# 2019-CU İLİN **DEKABR AYINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
**(2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

| | 2019 | 2018 |
|---|---|---|
| Tomat (pomidor) | 22,6 | 15,2 |
| Xurma | 20,1 | 25,4 |
| Pambıq mahlıcı | 14,9 | 9,5 |
| Qızıl | 14,8 | 10,9 |
| Fındıq ləpəsi | 10,7 | 13,4 |
| İlkin formalı polipropilen | 6,3 | 2,6 |
| Mis filizləri və konsentratları | 5,6 | 3,4 |
| Alma | 5 | 6,7 |
| Digər yağlar və məhsullar | 4,7 | 3,4 |
| Digər | 68,6 | 66,5 |












# 2018-Cİ İLİN VƏ 2019-CU İLİN YANVAR-DEKABR AYLARINDA ƏN ÇOX İXRAC EDİLƏN QEYRİ-NEFT SEKTORUNA AİD MALLAR (milyon ABŞ dolları ilə)

2020 İXRAC İCMALI DEKABR

## 2018

| Ay | Mal | Dəyər |
|---|---|---|
| Yanvar | Qızıl | 17,2 |
| Fevral | Elektrik enerjisi | 17,7 |
| Mart | Elektrik enerjisi | 13,6 |
| Aprel | Pomidor | 18,5 |
| May | Pomidor | 54,3 |
| İyun | Pomidor | 43,2 |
| İyul | Pambıq mahlıcı | 16,4 |
| Avqust | Qızıl | 12,6 |
| Sentyabr | Fındıq ləpəsi | 12 |
| Oktyabr | Xurma | 23,3 |
| Noyabr | Xurma | 45,2 |
| Dekabr | Xurma | 25,4 |

## 2019

| Ay | Mal | Dəyər |
|---|---|---|
| Yanvar | Xurma | 12,6 |
| Fevral | Elektrik enerjisi | 19,4 |
| Mart | Fındıq ləpəsi | 13,7 |
| Aprel | Pomidor | 24,2 |
| May | Pomidor | 54,6 |
| İyun | Pomidor | 33,8 |
| İyul | Qızıl | 14,7 |
| Avqust | Qızıl | 22,7 |
| Sentyabr | Qızıl | 13,1 |
| Oktyabr | Xurma | 27,1 |
| Noyabr | Xurma | 37 |
| Dekabr | Pomidor | 22,6 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

## 2019-cu İLDƏ
qeyri-neft sektoru üzrə
## ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

“İxrac İcmalı” tərəfindən qeyri-neft sektoru üzrə 2019-cu il üzrə həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir.

2019-cu il üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, “Socar Polymer" MMC, "MKT İstehsalat Kommersiya" MMC, "Nine Climate" MMC,  "Global Export Fruits" MMC, “Sun Food" MMC, "Natural Fruit" MMC, "Baku Steel Company", "Azərbaycan Şəkər İstehsalat Birliyi " MMC, "P-Aqro" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə ARDNŞ-nin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azəralüminium" MMC, "Azergold" QSC, "Azərenerji" ATSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, “CTS-Agro" MMC,  "Azərtütün Aqrar Sənaye Kompleksi" MMC, "Azərikimya" İB, "Bakı Neft Maşinqayırma Zavodu" TASC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



# 2019-CU İLİN **YANVAR-DEKABR AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (2018-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**

2020 İXRAC İCMALI YANVAR




* "Socar Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisə olduğu üçün qeyri-dövlət ixracatçı subyektlərin siyahısında təmsil olunmuşdur.

# 2019-CU İLİN **YANVAR-DEKABR AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **DÖVLƏTƏ MƏXSUS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**

2020 İXRAC İCMALI YANVAR

| | 2019-cu il | 2018-ci il |
|---|---|---|
| ARDNŞ-nin "MARKETİNQ VƏ İQTİSADİ ƏMƏLİYYATLAR İDARƏSİ" | 219,5 milyon | 181,5 milyon |
| "AZƏRALÜMİNİUM" MMC | 115,5 milyon | 10,6 milyon |
| "AZERGOLD" QSC | 85 milyon | 32,1 milyon |
| "AZƏRENERJİ" ASC | 75,9 milyon | 64,7 milyon |
| "AZƏRPAMBIQ AQRAR SƏNAYE KOMPLEKSİ" MMC | 23,6 milyon | 9 min |
| "AZƏRBAYCAN HAVA YOLLARI" QSC | 21,5 milyon | 26 milyon |
| "CTS-AGRO" MMC | 5,8 milyon | 19,7 milyon |
| "AZƏRTÜTÜN AQRAR SƏNAYE KOMPLEKSİ" MMC | 2,5 milyon | 68 min |
| "AZƏRİKİMYA" İB | 2 milyon | 0 |
| "BAKI NEFT MAŞINQAYIRMA ZAVODU" TASC | 1,5 milyon | 416 min |



# 2019-CU İLİN **YANVAR-DEKABR AYLARINDA "AZƏRKOSMOS" ASC 43,4 MİLYON** ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR





2019-cu ilin yanvar-dekabr aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın **27 ölkəsinə** xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir.

"Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **88 faizini** təşkil etmişdir. 2019-cu ilin dekabr ayında isə "Azərkosmos" ASC dünyanın **22 ölkəsinə 2,9 milyon** ABŞ dolları dəyərində xidmət ixrac etmişdir.




2019-cu ildə"Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi **5 əsas ölkə**

- Fransa — 12,6 milyon $
- ABŞ — 9 milyon $
- Birləşmiş Krallıq — 8,7 milyon $
- Malayziya — 8,4 milyon $
- BƏƏ — 1,4 milyon $



## 2019-cu İLDƏ
Azərbaycana gələn xaricilər
**BANK KARTLARI VASİTƏSİ İLƏ**
**1256,8 milyon** manatlıq əməliyyat aparmışlar

2018-ci illə müqayisədə
**2019-cu İLDƏ** ölkəmizə
**11,3 faiz** çox əcnəbi və vətəndaşlığı olmayan
şəxs gəlmişdir

2019-cu ildə Azərbaycana dünyanın 193 ölkəsindən 3170,4 min və ya əvvəlki illə müqayisədə 11,3 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən gələnlərin 29,4 faizi Rusiya Federasiyası, 22,9 faizi Gürcüstan, 10,0 faizi Türkiyə, 8,1 faizi İran, 3,4 faizi Səudiyyə Ərəbistanı, 2,2 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,1 faizi Hindistan, 1,9 faizi Ukrayna, hər birindən 1,6 faiz olmaqla Türkmənistan və İraq, hər birindən 1,5 faiz olmaqla Qazaxıstan, Pakistan və İsrail, 1,2 faizi Böyük Britaniya, 11,0 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur. Gələnlərin 66,6 faizini kişilər, 33,4 faizini isə qadınlar təşkil etmişdir.

Ölkəmizə 2019-cu ildə gələnlərin sayında daha çox artım Türkmənistan (84,2 faiz), Hindistan (66,8 faiz), Çin (62,4 faiz), Misir (55,6 faiz) və Malayziya (54,9 faiz) vətəndaşları arasında qeydə alınmışdır.

Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 21,3 faiz artaraq 136,5 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 9,3 faiz artaraq 1141,5 min nəfər olmuşdur.

2019-cu ilin dekabr ayında ölkəmizə gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatları 2018-ci ilin dekabr ayı ilə müqayisədə **11,8 faiz** artaraq **92,7 milyon** manat təşkil etmişdir. Ümumilikdə isə 2019-cu ilin yanvar-dekabr ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri **1256,8 milyon** manat təşkil etmişdir.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN **BANK KARTLARI VASİTƏSİ İLƏ** APARDIQLARI ƏMƏLİYYATLARIN DƏYƏRİ **(milyon manatla)**

İXRAC İCMALI 2020 YANVAR

| 2017 | 2018 | 2019 |
|---|---|---|
| Yanvar - **86,8** | Yanvar - **99,8** | Yanvar - **88,3** |
| Fevral - **72,5** | Fevral - **91,1** | Fevral - **85,3** |
| Mart - **91,1** | Mart - **105,8** | Mart - **98** |
| Aprel - **80,6** | Aprel -**109,7** | Aprel - **103,2** |
| May - **92,6** | May -**107,3** | May -**100,9** |
| İyun - **83,8** | İyun - **106,7** | İyun - **115,1** |
| İyul - **95,7** | İyul - **126,3** | İyul - **134,6** |
| Avqust - **100,8** | Avqust - **141** | Avqust - **137,4** |
| Sentyabr - **93,2** | Sentyabr - **114,6** | Sentyabr - **106,2** |
| Oktyabr - **74,4** | Oktyabr - **117** | Oktyabr - **104,7** |
| Noyabr - **72,1** | Noyabr - **76,2** | Noyabr - **90,3** |
| Dekabr - **78,4** | Dekabr - **82,9** | Dekabr-**92,7** |
| **Cəmi - 1022** | **Cəmi - 1278,4** | **Cəmi - 1256,8** |

# 3

# AZEXPORT.AZ PORTALINA 2019-CU İLDƏ 595,7 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

**2018-ci İLİN MÜVAFİQ DÖVRÜ İLƏ MÜQAYİSƏDƏ**
portala daxil olan **ixrac sifarişləri dəyər** baxımından
**15,9 faiz ARTMIŞDIR**

2019-cu ilin yanvar-dekabr aylarında Azexport.az portalına **595,7 milyon** ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olmuşdur. 2018-ci illə müqayisədə 2019-cu ildə ixrac sifarişləri **15,9 faiz** artmışdır. 2019-cu ilin dekabr ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri **63,4 milyon** ABŞ dolları təşkil etmiş və 2018-ci ilin müvafiq ayı ilə müqayisədə **80,6 faiz** artmışdır. 2019-cu il ərzində portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində Rusiya (12,7%), Türkiyə (7,4%), ABŞ (5,4%), İngiltərə (5,3%) və Səudiyyə Ərəbistanı (5,3%) qərarlaşmışdır.

Ötən ilin dekabr ayında Azexport.az portalına ən çox ixrac sifarişi fındıq ləpəsi, yumurta, tütün, şərab, tikinti materialı, qənnadı məhsulu, xurma, toyuq əti, pambıq yağı, çay, alma, bal, meyvə şirəsi, mühərrik yağı, kosmetik vasitə, mebel dəsti, soğan və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2019-cu ilin 31 dekabr tarixinə kimi (36 ay ərzində) Azexport.az portalına dünyanın **141 ölkəsindən** daxil olan ixrac sifarişlərinin dəyəri **1 milyard 584,8 milyon** ABŞ dolları təşkil etmişdir.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikalarda verilmişdir.

## **AZEXPORT.AZ** PORTALINA
## DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ **(milyon ABŞ dolları ilə)**






Yanvar - **91,7**
Fevral - **53,9**
Mart - **32,8**
Aprel - **50,9**
May - **32,5**
İyun - **41,3**
İyul - **43,5**
Avqust - **52,7**
Sentyabr - **37,1**
Oktyabr - **41**
Noyabr - **54,9**
Dekabr - **63,4**

| 2017-ci il ərzində | 2018-ci il üzrə | 2019-cu il |
|---|---|---|
| **CƏMİ - 475** | **CƏMİ - 514,1** | **CƏMİ - 595,7** |



Son **36 ay** ərzindəki sifarişlərin cəmi - **1 584,8**

# 2019-CU İLİN **DEKABR AYINDA AZEXPORT.AZ** PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

Fındıq ləpəsi



Yumurta



Tütün



Şərab



Tikinti materialı




Qənnadı məhsulu



Xurma



Toyuq əti



Pambıq yağı



Çay



Alma



Bal



Meyvə şirəsi



Mühərrik yağı



Kosmetik vasitə



# 2019-CU İLİN **YANVAR-DEKABR AYLARINDA AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN **ƏSAS İXRAC SİFARİŞLƏRİNİN ÖLKƏLƏR** ÜZRƏ BÖLGÜSÜ





4

# AZEXPORT.AZ PORTALI "PAY RİNG" RƏQƏMSAL ÖDƏNİŞ SİSTEMİNİN İCRASINA BAŞLAMIŞDIR

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin operatoru olduğu Azexport.az internet portalı "Pay Ring" layihəsinin icrasına başlamışdır. Qeyd edək ki, "Pay Ring" nağdsız ödənişlərin müasir simsiz "NFC (Near Field Communication)" rabitə sistemlərindən istifadə etməklə üzük vasitəsi ilə həyata keçirilməsi prosesidir.

Azexport.az portalının meneceri A.Qədəşov bildirmişdir ki, ölkə iqtisadiyyatında nağdsız ödənişlərin stimullaşdırılması və şəffaflığın artırılmasına yönəlik olan "Pay Ring" layihəsinin iş prinsipi "NFC" sistemi ilə işləyən plastik kartlarla eynidir. Qurğunu plastik kartlardan fərqləndirən əsas üstünlükləri ödənişlərin həyata keçirilməsi üçün plastik kart və ya mobil telefona ehtiyacın olmaması, "Token" sistemi vasitəsi ilə yüksək təhlükəsizliyin təmin olunması, qurğunun üzərində istifadəçiyə aid bank məlumatlarının yazılı olmaması kibercinayətkarlıq hallarının minimuma endirməsi, bir milyondan artıq ödəniş əməliyyatlarının həyata keçirilməsi imkanı, qurğunun 10 il zəmanətli olması, qurğunun kiçik həcmli olması və sairdir.

Portal meneceri əlavə etmişdir ki, qurğu tam müstəqil və enerjidən asılı olmadığı üçün mobil telefon və ya əlavə avadanlığa ehtiyac yoxdur: "İstifadəçiyə aid olan bank məlumatları qurğuya bir dəfə köçürülür və hesabın artırılması üçün təkrar olaraq qurğuda yeni əməliyyatların aparılmasına ehtiyac yoxdur."

Qeyd edək ki, Azexport.az internet portalı "Pay Ring" rəqəmsal ödəniş sistemi layihəsini "VISA International" şirkəti ilə birgə icra edəcəkdir.



# 5

# 2020-Cİ İLİN YANVAR AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN 13,8 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ QEYRİ-NEFT İXRACI HƏYATA KEÇİRİLMİŞDİR

2020-ci ilin yanvar ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi tərəfindən fiziki və hüquqi şəxslərə ixracla bağlı müvafiq sertifikatlar verilmişdir. Qeyd edək ki, "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin xidmətlərindən "AzerGold" QSC, Teymur Əhmədov adına "AZNAR" QSC, "Baku Steel Company" MMC, "Agro Export Azerbaijan" MMC, "Atena" MMC, "Gilan Tekstil Park" MMC kimi şirkətlərlə yanaşı, fiziki şəxslərdə istifadə etmişdirlər. Nəticədə cari ilin yanvar ayı ərzində Mərkəz vasitəsi ilə verilən ixrac sənədlərinə əsasən **13,8 milyon** ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir.

Cari ilin yanvar ayı ərzində ixracatçılara əsasən polad armatur yayması, polad boru, qiymətli külçələr, ayaqqabı altlıqları, tikinti materialları, meyvə şirələri, biyan kökü, pendir,pambıq tullantısı, tibbi zəli, qənnadı məmulatları və s. məhsulların ixracı üçün lazım olan müvafiq sənədlər təqdim edilmişdir. Sertifikat verilən məhsullar Rusiya, Gürcüstan, Ukrayna, Türkiyə, Almaniya, Özbəkistan, Polşa, İsveçrə, ABŞ, İraq daxil olmaqla dünyanın müxtəlif ölkələrinə ixrac edilmişdir.

Məlumat üçün bildirək ki, 2018-ci ildə "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsi ilə həyata keçirilən ixracın dəyəri **150 milyon**, 2019-cu ildə isə **140,4 milyon** ABŞ dolları olmuşdur.



# 2020-Cİ İLİN **YANVAR AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ** VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN **İXRACIN STATİSTİKASI (milyon ABŞ dolları ilə)**









# CARİ İLİN **YANVAR AYINDA** "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNİN TƏQDİM ETDİYİ **SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ** BÖLGÜSÜ (%)

2020 İXRAC İCMALI YANVAR

RUSİYA **37,0%**

GÜRCÜSTAN **18,0%**

UKRAYNA **8,0%**

TÜRKİYƏ **6,0%**

ALMANİYA **6,0%**




ÖZBƏKISTAN **4,0%**

POLŞA **3,0%**

İSVEÇRƏ **3,0%**

ABŞ **2,0%**

DİGƏR **13,0%**

6

# AZƏRBAYCAN ŞİRKƏTLƏRİ “BEYNƏLXALQ YAŞIL HƏFTƏ 2020” SƏRGİSİNDƏ İŞTİRAK ETMİŞDİRLƏR

Cari ilin 17-26 yanvar tarixlərində Almaniya Federativ Respublikasının paytaxtı Berlin şəhərində qida, kənd təsərrüfatı və bağçılıq sahəsində ənənəvi “Beynəlxalq Yaşıl Həftə” (“International Green Week”) sərgisi keçirilmişdir. Sərgidə İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə qida, şərab və digər spirtli içki istehsalı, eləcə də kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən 11 Azərbaycan şirkəti 180-dək çeşiddə məhsulunu “Made in Azerbaijan" vahid ölkə stendində nümayiş etdirmişdir.

Sərgidə Azərbaycan istehsalı olan efir və bitki yağları, şərablar, nar şirələri, çaylar, o cümlədən müalicəvi bitki çayları, mürəbbələr və s. məhsullar maraqla qarşılanmışdır. Sərgi çərçivəsində Azərbaycan sahibkarlarının xarici həmkarları görüşlər keçirmiş və ixraca dair müzakirələr aparmışlar.

Qeyd edək ki, 70-dən çox ölkədən 1500-dən çox şirkətin iştirak etdiyi və Avropanın ən iri sərgisi hesab olunan “Beynəlxalq Yaşıl Həftə" sərgisində Azərbaycan 12-ci dəfə təmsil olunmuşdur.





**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Landau küç., 16
16, Landau str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Ландау, 16

Tel.: (+994 12) 521 28 48
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az
/iqtisadiislahat
/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən
"İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə
daxil edilmişdir.

iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org

